14 dekabr 2015-ci ci ildə yaradılan **“Bir” Tələbə-Könüllü proqramı 2 avqust 2019-cu ildən** **“Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyi** kimi dövlət qeydiyyatına alınmışdır.

**“Bir Könüllü” Təşkilatı** Azərbaycanın siyasi və iqtisadi inkişafında böyük rol oynayan **tələbə-könüllülərlə** işi sistemləşdirmək, könüllülük fəaliyyətini stimullaşdırmaq, tələbələrin dərsdənkənar asudəvaxtlarının dəyərləndirilməsi üçün yaradılmış **uzunmüddətli proqramdır.**

Təşkilatın məqsədi tələbələrə könüllülüyün mahiyyətinin aşılanması, təbliği üzrə geniş və davamlı şəkildə təbliğat - təşviqat işlərinin aparılması, tələbə-könüllülərin vahid məlumat bazasının inkişaf etdirilməsi, tələbə-könüllülər üçün təlim-tədris proqramları və kurslarının təşkil olunması, tələbə-könüllülərin intellekt səviyyəsinin və dünyagörüşünün genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsidir.

Bizə üzv olmaqla tələbələr şəxsi inkişafları və asudə vaxtlarının səmərəli dəyərləndirilməsi üçün 6 müxtəlif istiqamət (**Öyrən, Öyrət, Yaşa, Yaşat, Kəşf Et, Zövq Al)** çərçivəsində **keçirilən fəaliyyətdə** iştirak edə və setifikat əldə edə bilərlər. Həmçinin, tələbə-könüllülərə iştirak etdikləri tədbirlərə görə sertifikatları onlayn olaraq şəxsi profillərinə yüklənir. Şəxsi profillərində əldə etdikləri sertifikatlarının siyahısına baxa və ya onları yükləyə bilərlər.

Üzv olmaq üçün [www.konullu.edu.az](http://www.konullu.edu.az) saytımıza daxil olaraq qeydiyyat formasının doldurulması kifayətdir. Müraciət edən tələbələrin qeydiyyatı uğurla tamamlandıqdan sonra hər təhsil müəssisəsinin nümayəndələri tərəfindən yeni üzvlərlə saxlanılaraq müsahibə təşkil edilir. Müsahibədən uğurla keçmiş tələbə-könüllülərin üzvlükləri aktiv edilir.

Qeyd edək ki, “Bir Könüllü” Təşkilatı Azərbaycan Respublikası Təhsil Nazirliyi başda olmaqla bir sıra qurum, şirkət və təşkilatlarla əməkdaşlıq edir.